www.azsport.az

# İDMAN

Qəzet 1932-ci ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNİN ORQANI

№ 13 (7108) 6 iyul 2021-ci il Qiymәti 40 qәpik



## Azərbaycan və Türkiyə prezidentləri Bakı Olimpiya Stadionunda Avropa çempionatının Türkiyə-Uels matçını izləyiblər

*”Avro-2020”nin A qrupunda yer alan Türkiyə milli komandası iyunun 16-da Bakı Olimpiya Stadionunda Uels yığması ilə qarşılaşıb.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva, ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan oyuna baxıblar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Avropa Futbol Federasiyaları Assosiasiyasının (UEFA) prezidenti Aleksander Çeferin ilə görüşüblər.

Oyun başa çatandan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Prezident Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı yola saldılar.

## Avropanın Azərbaycan imzalı yubiley çempionatı son mərhələsində

### Ənənələr, ümid və yeniliklər yarışı



*Bakı Azərbaycan idmanı tarixinin daha bir səviyyəli turnirinə ev sahibliyi etdi. Avropa Oyunlarını olimpiya oyunları səviyyəsində keçirərək, bu idman bayramına yaşıl işıq yandırmış, İslam oyunları, şahmat olimpiadası, hələ üstəlik, Avropa liqasının final matçına ev sahibliyi etmiş paytaxt Bakının bu yarışın da təşkilatçılığını yüksək səviyyədə təmin edəcəyi əvvəldən şübhə doğurmurdu.*

Bununla belə, UEFA bayrağı altında keçirilən futbol üzrə Avropa çempionatının final mərhələsi də populyarlığı ilə xüsusi seçilir. Həm də dünyada ən çox izlənilən bir turnir kimi qitə çempionatı ölkənin imici baxımından da mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən təşkilatçılıqda hər bir məsələ xüsusi nəzərə alınmalı idi. Üstəlik, ”COVID-19” pandemiyasının bir il təxirə salaraq, diktə etdiyi şərtlər daxilində bu yarış, əlavə bir sıra qaydaları da nəzərə almalı idi.

Bütün manеələrə rəğmən, ”Avro-2020” markası altında 1 il sonra keçirilən qitə çempionatı tarixə yenilikləri və özəllikləri ilə daxil olacaq. Ən əsası, pandemiya şərtlərinə rəğmən futbol mübarizəsinin yenidən özünə qayıdaraq, yaratdığı bayram ovqatı ilə bu turnir idmanın bəşəriyyətin çətin durumlarında belə verdiyi ümidlər və ismarıc baxımından Avropa çempionatının final mərhələsinin xüsusi yeri olacaq.

⇨ səh. 6

## Azərbaycan Milli Olimpiya Komitəsinin “Tokio-2020” ilə bağlı iclası keçirilib




*İyunun 25-də Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) ”Tokio-2020” Yay Olimpiya Oyunlarına həsr olunan iclas keçirib. MOK və Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) birgə təşəbbüsü ilə baş tutan tədbirdə bütün iştirakçı federasiyaların rəhbər, tibb və məşqçi heyətləri iştirak ediblər.*

Tədbiri giriş sözü ilə açan MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə görüşün Olimpiada öncəsi əhəmiyyətini vurğulayıb.

Sonra Olimpiya Oyunları zamanı dopinq nəzarəti, o cümlədən bu sahədəki yenilik və dəyişikliklərlə bağlı AMADA-nın xüsusi təqdimatı olub.

AMADA-nın rəhbəri Şəfəq Hüseynli bildirib ki, Agentliyin ”Tokio-2020” Yay Olimpiya Oyunları zamanı Çağrı Mərkəzi fəaliyyət göstərəcək. İyirmi dörd saat ərzində fasiləsiz fəaliyyət göstərəcək Çağrı Mərkəzində idmançılar və məşqçilərin dopinq nəzarəti ilə bağlı bütün sualları cavablandırılacaq. Çağrı Mərkəzi təmiz idmanın daha geniş yayılması və idmançıların məlumatlandırılmasına yönəlib.

Təqdimat zamanı iclas iştirakçıları antidopinqlə bağlı idmançıların hüquq və öhdəlikləri, o cümlədən terapevtik istisna icazəsi üçün müraciət və icazənin verilmə şərtləri, məkan məlumatı, ”İynəyə yox” siyasəti və digər məsələlərlə bağlı ətraflı məlumatlandırılıb.

Daha sonra MOK əməkdaşları COVID-19 və sosial mediadan istifadə qaydaları haqda təqdimatla çıxış ediblər.

MOK-un beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Anar Bağırov və şöbənin nümayəndəsi Ceyhun Rəhmanovun COVID-19 təqdimatında pandemiya şəraitində Olimpiya Oyunlarının keçirilməsi ilə bağlı qaydalar açıqlanıb.

Komitənin marketinq şöbəsinin rəhbəri Mehman Kərimov və şöbənin əməkdaşı Səkinə Vəliyevanın təqdimatı isə ”Tokio-2020” Yay Olimpiya Oyunlarının sosial media və marketinq strategiyası və yığmanın bu istiqamətdə əməl etməli olduğu qaydalara həsr olunub.

Azərbaycan Milli Olimpiya Komitəsinin Tokio Yay Olimpiya Oyunlarına həsr olunan iclasında gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, MOK-un baş katibinin müavini Azər Əliyev iştirak ediblər.

## Azərbaycan triatlonçusu “Tokio-2020”yə vəsiqə qazanıb

*Azərbaycan triatlonçusu Rostislav Pevtsov ”Tokio-2020” Yay Olimpiya Oyunlarına vəsiqə qazanıb.*

Olimpiya reytinqində 46-cı olan idmançımız lisenziyanı təmin etməklə ”Tokio-2020” Yay Olimpiya Oyunlarında iştirak hüququ əldə edib.

Yekun Olimpiya təsnifat reytinqində xallar triatlonçuların Olimpiya təsnifat dövründə iştirak etdikləri və daha yüksək xallar topladıqları beynəlxalq turnirin nəticələrinə görə hesablanıb.



Nəticədə lisenziyaların sahibləri buna əsasən müəyyənləşdirilib.

Beləliklə, R.Pevtsov ”Rio-2016”dan sonra ikinci dəfə Olimpiya Oyunlarında iştirak hüququ qazanıb.

## İdman ictimaiyyətinin və gənclər təşkilatlarının nümayəndələri Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin xatirəsini yad ediblər



15 iyun - Milli Qurtuluş Günü münasibətilə Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kollektivləri, ölkəmizin aparıcı gənclər təşkilatlarının və idman ictimaiyyətinin nümayəndələri Fəxri xiyabana gələrək, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ümummilli lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri düzüblər.

Ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın da xatirəsi dərin ehtiramla anılıb, məzarı üzərinə gül dəstələri qoyulub.

## Azərbaycan ilə Türkiyə arasında gənclərlə iş və idman sahələrində əməkdaşlıq genişləndirilir

***Azərbaycanın gənclər və idman nazirinin müavini İntiqam Babayev Türkiyənin gənclər və idman naziri Mehmet Kasapoğlu ilə görüşüb.***



Görüşdə dövlətlərimizin başçıları İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın Şuşa görüşünün tarixi əhəmiyyəti qeyd edilib və iki dövlət arasında münasibətlərdə yeni mərhələnin başlanğıcı olan Şuşa Bəyannaməsinin imzalanmasının önəmi vurğulanıb.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclasının protokolunun gənclər və idman sahəsinə aid bəndlərinin icrasının sürətləndirilməsi barədə fikir mübadiləsi aparılıb.

Münasibətlərin daha da dərinləşdirilməsi üçün Azərbaycan ilə Türkiyə arasında birgə gənclər forumları, gənclər düşərgələri və mübadilə proqramlarının keçirilməsi, Gənclər evləri və mərkəzləri arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, daimi olaraq qarşılıqlı təcrübə və məlumat mübadiləsinin aparılması, müxtəlif istiqamətlərdə nümayəndə heyətləri formatında səfərlərin təşkili və digər məsələlər müzakirə edilib.

## Azərbaycan üzgüçüsü Tokio Olimpiya Oyunlarına vəsiqə qazanıb

***Azərbaycanın daha bir üzgüçüsü Tokio Olimpiya Oyunlarında çıxış edəcək. Beynəlxalq Üzgüçülük Federasiyası (FINA) üzgüçümüz Məryəm Şeyxəlizadəxangaha "vayld kard" verib.***



Bununla da İran əsilli idmançı Azərbaycanı Olimpiadada xüsusi dəvət əsasında təmsil edəcək. İyulun 18-də 17 yaşı tamam olacaq Məryəm Şeyxəlizadəxangah İranın paytaxtı Tehranda doğulub və 2019-cu ildən Azərbaycan yığmasının üzvüdür.

# İyulun 15-də Gənclər və İdman Nazirliyi yanında İctimai Şuraya seçki keçiriləcək

***İyulun 1-də Gənclər və İdman Nazirliyi yanında İctimai Şuraya seçkilərin keçirilməsi üzrə Seçki Komissiyasının "Zoom" platforması vasitəsilə iclası keçirilib.***




Onlayn iclasda İctimai Şuraya seçkilərin keçirilməsi üzrə komissiyanın nazirliyin əmri ilə təsdiqlənmiş üzvləri - gənclər və idman nazirinin müavini, komissiyanın sədri İntiqam Babayev, Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Fərid Mansurov, Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin Gənclər təşkilatları ilə iş sektorunun müdiri Fuad Babayev, Gənclər və İdman Nazirliyinin baş məsləhətçisi - baş hüquşünası Rauf Əliyev, "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyinin sədri Nurəddin Mehdiyev, Azərbaycan Skautlar Assosiasiyanın sədri Emin Babayev, Milli Olimpiya Komitəsinin Marketinq idarəsinin rəisi, komissiyanın üzvü Mehman Kərimov, Çerlinq Federasiyasının prezidenti Alla Vlasova, Milli Paralimpiya Komitəsinin baş katibi Kamal Məmmədov iştirak ediblər.

Komissiyanın sədri, gənclər və idman nazirinin müavini İntiqam Babayev bildirib ki, bu günədək nazirliyin yanında yalnız Gənclərlə iş üzrə İctimai Şura fəaliyyət göstərib. O, nazirliyin iki dövlət siyasətini icra etdiyi üçün qanunvericiliyin tələblərinə görə həmin sahələri təmsil edən vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə Gənclər və İdman Nazirliyi yanında İctimai Şuranın formalaşdırılmasının vacibliyini vurğulayıb. Həmçinin "İctimai iştirakçılıq haqqında" Qanunun tələblərinə və "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə uyğun olaraq, seçkinin tam şəffaf və ədalətli keçirilməsi üçün bütün imkanların yaradılacağını qeyd edib.

Komissiyanın üzvləri İctimai Şuranın nazirliyin fəaliyyətində önəmli yer tutacağını və onun fəaliyyəti üçün bütün texniki imkanların yaradılmasının zəruriliyini vurğulayıblar.

İclasda seçki ilə bağlı görülmüş işlər, namizədlər və təmsilçilər, səsvermə gününün təyin olunması, seçkilərin təşkili və digər məsələlər müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.

İclasda 47 nəfərin namizədliyinin irəli sürüldüyü, bunlardan 43-nün qeydiyyata alındığı bildirilib. Üç nəfərin sənədləri tam qaydasında, bir nəfərin isə müvafiq sahə üzrə təcrübəsini təsdiq edən məlumatlar olmadığından onların namizədlikləri qeydiyyata alınmayıb.

Məlumat verilib ki, seçki iyulun 15-də saat 10:00-dan 14:00-dək Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının böyük zalında keçiriləcək. İctimai Şuranın 15 nəfərdən ibarət tərkibdə formalaşdırılması nəzərdə tutulur.

Gənclər və İdman Nazirliyi yanında İctimai Şuraya namizədliyi qeydə alınan şəxslər aşağıdakılardır: *Mikayıl Raqif oğlu Həsənli ("Gənc Nəslin Maarifləndirilməsi" İctimai Birliyi), Azər Nurəddin oğlu Əliyev ("Gəncliyin Təşəbbüsü Maarifləndirmə" İctimai Birliyi), İntiqam Yaşar oğlu Cavanşir (Dünya Gənc Türk Yazarlar Birliyi), Nihad Vüqar oğlu Allahyarlı ("Davam" Gənclər Hərəkatı İctimai Birliyi), Qələndər Asdan oğlu Aslanov ("Samuray" İdman Klubu İctimai Birliyi), Asim Nazimoviç Vəliyev ("Gənclərin Töhvəsi" İctimai Birliyi), Azər Ruslan oğlu Əliyev (Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası), Arif Aydın oğlu Məmmədov (Azərbaycan Karate-do Federasiyaları Assosiasiyası), Ramiz Təvəkkül oğlu Əliyev ("Sağlam Düşüncə" Gənclər Təşkilatı), Azad Əziz oğlu Mənaflı ("İsmayıllı İntellektual oyunlar klubu" İctimai Birliyi), Kamal İzzət oğlu Əhmədov (Azərbaycan Atletika Federasiyası), Zöhrab Katib oğlu Gözəlbəyli (Azərbaycan Voleybol Federasiyası), Elnur Mənəf oğlu Məmmədov ("Autizm Assosiasiyası" İctimai Birliyi), Səbinə Aydın qızı Əliyeva ("Dan" Beynəlmiləlçi Gənclər İctimai Birliyi), Elvar Eldar oğlu Osmanov (Gəncə İdman Klubu İctimai Birliyi), Səbuhi Knyaz oğlu Mehdizadə (Azərbaycan Stolüstü Tennis Federasiyası), Elçin Eldar oğlu Mehdizadə (Azərbaycan Şotokan Karatedo Federasiyası), Aynur Tofiq qızı Məmmədova ("Əlilliyi olan uşaq və gənclərin idmana inteqrasiyası" İctimai Birliyi), Əziz Fatehoviç Əzizov ("Azərbaycan Gənclər İttifaqı" İctimai Birliyi), Hüseynəli Çərkəz oğlu Abbaslı (Azərbaycan MMA, Pankration və Qrapplinq Federasiyası), Cəsarət Mehman oğlu Əhmədov (Azərbaycan Qol Güləşi Federasiyası), Ceyhun Sabir oğlu Bayramov (Azərbaycan Könüllü Təşkilatları İttifaqı), Sənan Nizami oğlu Məhərrəmov (Azərbaycan Respublikasının Milli Karate Federasiyası), Nağı Tofiq oğlu Səfərov (Azərbaycan Boks Federasiyası), Saleh Eldar oğlu Bağırov ("İrs - Gənclərin Maarifləndirmə və Təbliğat Mərkəzi" İctimai Birliyi), Fərhad Eldar oğlu Acalov ("Azərbaycan İdmançıları" İctimai Birliyi), Elşən Talıb oğlu Abbasov (Azərbaycan Reqbi Federasiyası), Elnur Tahir oğlu Alıyev (Ağsu Futbol Klubu), Bəxtiyar Tofiq oğlu Quliyev ("Azərbaycan Strongmen Federasiyası" İctimai Birliyi), Hüseyn Asif oğlu Əsgərli ("Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatı" İctimai Birliyi), Bağır Salam oğlu Əsgərəlizadə (Azərbaycan Tennis Federasiyası), Teyub Ağayar oğlu Əzizov (Azərbaycan Kyokuşinkaykan Karate və Ciyutaido Federasiyası), Coşqun Hikmət oğlu Hidayətov ("Böyük Qayıdış" Gənclər Təşkilatı), Vüqar Kərim oğlu Qədirov (Azərbaycan Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatı), Nigar Elman qızı Ələsgərova ("Odlar Yurdu" Gənclər İctimai Birliyi), Kazım Xanlar oğlu Qurbanov (Azərbaycan Milli İdman Oyunları Assosiasiyası), Miraqil Miramin oğlu Seyidzadə ("Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi), Pərviz Atamalı oğlu Mirələmli (Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı), Elmar Tofiq oğlu Babanlı (Azərbaycan Cüdo Federasiyası), Rafael Siyavuş oğlu Hacıbəyli ("Avropa Gənclər Parlamenti - Azərbaycan" İctimai Birliyi), Həsənağa Nazim oğlu Rzayev (Milli Olimpiya Komitəsi), Şahin Elman oğlu Rəhmanlı ("İRƏLİ" İctimai Birliyi), Nuranə Xanoğlan qızı Şıxəliyeva (Azərbaycan Alpaqut Federasiyası).*

Qeyd edək ki, 1994-cü ildən Gənclər və İdman Nazirliyi yanında Gənclərlə iş üzrə İctimai Şura fəaliyyət göstərir. İctimai Şuranın əsas məqsədi dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı qərarların qəbulu prosesində gənclər təşkilatlarının iştirakını təmin etmək olub. İndiyədək İctimai Şuranın iclaslarında Prezident, Milli Məclis və bələdiyyə seçkilərində gənclərin iştirakı, qanunların və dövlət proqramlarının layihələri, Azərbaycan gənclərinin forumlarının keçirilməsi, gənclərin vətənpərvərlik tərbiyəsi, Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, gənclərin sosial şəbəkələrdə fəaliyyəti və s. məsələlər müzakirə olunub, dünyada və respublikada baş verən mühüm ictimai-siyasi hadisələrə münasibət bildirilib.

Gənclər və İdman Nazirliyi yanında İctimai Şura formalaşdırıldıqdan sonra Gənclərlə iş üzrə İctimai Şuranın fəaliyyətinə xitam veriləcək.

# "Qarabağ Azərbaycandır!" devizi altında keçirilən futbol turnirinin qalibləri müəyyənləşib



***Azərbaycan İdman Jurnalistləri Federasiyasının (AİJF) Gənclər və İdman Nazirliyi, AFFA və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) dəstəyi ilə idman jurnalistləri arasında təşkil etdiyi və Vətən müharibəsində Qələbəyə həsr etdiyi "Qarabağ Azərbaycandır!" futbol turnirinə yekun vurulub.***

Turnirin qrup oyunları ADBTİA-nın stadionunda keçirilib. Bu mərhələnin son turunda "Qubadlı" "Füzuli"yə 3:2 hesabı ilə qalib gələrək, "A" qrupunun 9 xalla 1-cisi olub. "Füzuli" isə 6 xalla 2-ci yeri tutub. Qrupun digər oyununda "Cəbrayıl" "Laçın"ı 10:8 hesabı ilə yenərək, 3 xalla 3-cü olub. Laçın komandası yarışı xalsız başa vurub.

"B" qrupunda "Zəngilan" ardıcıl 3-cü qələbəsini "Şuşa" üzərində əldə edib - 5:0. Qrupun digər oyununda "Ağdam" "Kəlbəcər"i yenib - 5:1.

Beləliklə, "B" qrupunda 9 xalla 1-ci yeri "Zəngilan" tutub, 6 xalla 2-ci pillədə "Ağdam" qərarlaşıb. "Şuşa" komandası 3 xalla 3-cü, xal toplaya bilməyən "Kəlbəcər" komandası 4-cü yeri tutub. Qruplarda ilk iki yerləri tutan komandalar yarımfinala adlayıblar.

Növbəti mərhələlərin oyunları Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərova adına məktəblisey kompleksinin stadionunda təşkil olunub. Yarımfinal matçlarında əvvəlcə "Qubadlı" və "Ağdam" komandaları qarşılaşıblar. "Qubadlı" komandası rəqibini 9:2 hesabı ilə məğlub edərək finala yüksəlib.

Yarımfinalın digər oyununda isə "Zəngilan" komandası "Füzuli" futbolçuları ilə mübarizə aparıb. "Zəngilan" komandası hesabda iki dəfə irəli çıxsa da, üstünlüyü qoruya bilməyib. Görüşün taleyi reqlamentə əsasən, penaltilər seriyasında həll edilib. Bu mərhələdə "Füzuli" komandası 3:1 hesablı qələbə qazanaraq adını finala yazdırıb.

26 İyun - Silahlı Qüvvələr Günündə keçirilən final qarşılaşmasında "Qubadlı" və "Füzuli" komandaları üz-üzə gəliblər. Görüşün əsas vaxtı 3:3 hesabı ilə başa çatdığından qalib penaltilər seriyasında müəyyənləşib. Bu hissədə daha dəqiq oyun nümayiş etdirən "Qubadlı" komandası 5:3 hesabı ilə qalib gələrək çempion olub.



Üçüncü yer uğrunda görüşdə isə "Ağdam" komandası "Zəngilan"ı 6:3 hesabı ilə məğlubiyyətə uğradıb.

Daha sonra turnirin qalibləri mükafatlandırılıb. Qalib komandaya kubok və qızıl medallar, ikinci və üçüncü yerləri tutan komandalara, müvafiq olaraq, gümüş və bürünc medallar təqdim edilib.

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov mükafatlandırma mərasimində çıxış edərək media nümayəndələri arasında keçirilən turnirin məqsədinin 44 günlük Vətən müharibəsində şanlı qələbə qazanan Azərbaycan Ordusunun təbliği olduğunu vurğulayıb. Bildirib ki, turnirin final qarşılaşmasının və qaliblərin təltif olunmasının 26 iyun - Silahlı Qüvvələr Gününə təsadüf etməsi xüsusi əhəmiyyət daşıyır.

Mərasimdə mükafatları qaliblərə İsmayıl İsmayılov, ADBTİA-nın rektoru Fuad Hacıyev, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, AİJF-nin prezidenti Qabil Mehdiyev, şəhid jurnalistlər - Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) aparıcı müxbiri Məhərrəm İbrahimovun qardaşı Əsgər İbrahimov və Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun qardaşı Şirzad Abışov təqdim ediblər.

Turnirin ən yaxşı futbolçusu adına "Qubadlı" komandasından Etibar Tağıyev layiq görülüb. Onun komanda yoldaşı Xanoğlan İmanov 14 qolla yarışın bombardiri olub. Ən yaxşı qapıçı "Füzuli"dən İlqar Tağıyev seçilib. "Şuşa" komandası isə "fair play" mükafatını alıb.

# Göygöldə şəhid övladları üçün idman festivalı keçirilib



***Göygöldə "Qəhrəman övladları" adlı idman festivalı təşkil edilib. Festival "Cavad Xan" Tarix və Mədəniyyət Fondu, "Qardaşlıq" qrupu, Göygöl Gənclər və İdman İdarəsi, Gəncə Regional Mədəniyyət İdarəsi, Göygöl Olimpiya və İdman Kompleksi, Türkiyənin Gəncədəki Baş Konsulluğunun birgə təşkilatçılığı ilə keçirilib.***

Göygöl Olimpiya İdman Kompleksində keçirilən tədbirdə Gəncə və Göygöldən 67 ailədən 118 şəhid övladı (7-12 yaş qrupu) iştirak edib.

Tədbirdə çıxış edən Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk bildirib ki, şəhidlərimizin övladları bu millətə əmanətdir:. "Ümid edirəm, bu yadigarları azərbaycanlı qardaşlarımızla birlikdə qoruyacağıq, şəhidlərimizin ruhunu əsla incitməyəcəyik və hər zaman qazilərimizin yanında olacağıq".

Baş konsul tərəfindən komandalara kapitanlıq və mükafatlandırma Azərbaycanın məşhur idmançılarından olan Olimpiya, Dünya, Avropa çempionları və mükafatçıları Hacı Əliyev, Namiq Abdullayev, Mövlud Mirəliyev, Rövşən Bayramov, Mariya Stadnik, Şərif Şərifov, Şahmuraz Qasımov, Ramil Qasımov və Hakim Nəzərəliyevə həvalə edilib.

Festivalda Gəncə və Göygöldən olan məşqçilərin və idmançıların bir neçə idman növü üzrə nümunəvi çıxışları təqdim edilib, şəhid övladlarına xoşladıqları idman növünə yerindəcə yazılmaq və təmənnasız məşğul olmaq imkanı yaradılıb.

# Şəhidlərin xatirəsinə həsr olunan mini-futbol turnirlərində

***Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) şəhidlərin xatirəsinə həsr olunan mini-futbol turnirləri keçirib.***



ASAN könüllüləri arasında Milli Qəhrəman İlqar Mirzəyevin xatirəsinə həsr edilmiş mini-futbol turnirində 6 komanda iştirak edib. Yarışda "ASAN Sumqayıt" komandası birinci olub. İki saylı ASAN və 1 saylı ASAN komandaları ilk üçlüyü tamamlayıblar.

BŞGİBİ-nin Bakı Kənd Futbol Federasiyası ilə birgə təşkilatçılığı ilə aprel döyüşləri şəhidi Mahmud İbrahimovun xatirəsinə həsr olunmuş turnirdə paytaxtın kənd və qəsəbələrini təmsil edən 8 komanda iştirak edib. Final oyununda "Binəqədi" komandası "Biləcəri"ni məğlub edərək turnirin qalibi olub. "Mehdiabad" komandası yarışı üçüncü pillədə başa vurub.

BŞGİBİ və Bakı Kənd Futbol Federasiyasının təşkil etdikləri daha bir yarış aprel döyüşləri şəhidi Xalid Əzizzadənin xatirəsinə həsr olunub. Bakı şəhərinin kənd və qəsəbələrini təmsil edən 8 komandanın iştirakı ilə keçirilən turnirin final oyununda "Mübariz" komandası "Spartak"ı məğlub edərək qalib olub. "Balaxanı" komandası üçüncü yeri tutub.

# Stend atıcımız Tokio Olimpiadasına vəsiqə qazanıb

***Azərbaycanın daha bir atıcısı Tokio Yay Olimpiya Oyunlarında iştirak edəcək. Stend atıcılığı üzrə milli komandamızın üzvü Emin Cəfərov "Tokio-2020" Yay Olimpiya Oyunlarında iştirak hüququ qazanıb.***



Belə ki, Cəfərov Beynəlxalq İdman Atıcılığı Federasiyasının qərarı ilə bu vəsiqəyə sahib çıxıb.

Qeyd edək ki, Tokio Yay Olimpiya Oyunlarının 23 iyul - 8 avqustda keçirilməsi planlaşdırılıb.

# Azərbaycanın qadın cüdoçusu Tokio Olimpiadasına lisenziya qazanıb

***Azərbaycanın daha bir cüdoçusu Tokio Olimpiadasına vəsiqə qazanıb.***



Qadın cüdoçumuz Aişə Qurbanlı 48 kq çəki dərəcəsində ölkəmizi təmsil edəcək. A.Qurbanlının reytinq xalı yüksək olduğu üçün lisenziyaya sahib olub. Beləliklə, Tokio Olimpiadasında Azərbaycanı iki qadın cüdoçu - Ayşə Qurbanlı və 78 kq yuxarı çəki dərəcəsində İrina Kindzerska təmsil edəcəklər.

# Paralimpiyaçılarımızdan "Tokio-2020"yə daha 14 lisenziya

***Milli Paralimpiya komandamız "Tokio-2020" Yay Paralimpiya Oyunlarına daha 13 lisenziya əldə edib. Bunlardan 2-si pauerliftinq, 11-i cüdo növündə qazanılıb.***



Dubayda keçirilən dünya kubokunda Azərbaycan Milli Paralimpiya Komitəsinin pauerliftinq idman növü üzrə milli komandasının üzvü Pərvin Məmmədov (49 kq) 157 kiloqram nəticə göstərərək yarışı 4-cü yerdə yekunlaşdırıb. Eyni yarışda Şamo Aslanov (+107 kq) 223 kiloqram nəticə göstərərək yarışın gümüş medalına sahib olub. Dünya kubokunda və daha öncə reytinq xalları qazandıran yarışlarda yüksək nəticə əldə etmiş P.Məmmədov və Ş.Aslanov "Tokio-2020" Yay Paralimpiya Oyunlarında Azərbaycanı təmsil edəcəklər.

Daha bir pauerliftinqçimiz Nurlan Babacanov reytinq xalları qazandıran yarışlarda yüksək nəticəyə görə lisenziya əldə edib.

Reytinq xalı qazandıran yarışlarda yüksək nəticələr əldə etmiş 6 kişi və 5 qadın paracüdoçumuz da "Tokio-2020"də iştirak hüququ qazanıb.

Kişilərin yarışında ölkəmizi Vüqar Şirinli (60 kq), Namiq Abaslı (66 kq), Ramil Qasımov (73 kq), Hüseyn Rəhimli (81 kq), Kənan Abdullaxanlı (100 kq) və İlham Zəkiyev (+100 kq) təmsil edəcəklər.

Qadınların mübarizəsində isə Şəhanə Hacıyeva (48 kq), Bəsti Səfərova (52 kq), Sevda Vəliyeva (57 kq), Xanım Hüseynova (63 kq) və Dürsədəf Kərimova (+70 kq) tatami üzərinə çıxacaqlar.

"Rio-2016" Yay Paralimpiya Oyunlarında ölkəmiz 6 kişi və 1 qadın olmaqla ümumilikdə 7 paracüdoçu ilə təmsil olunub.

Beləliklə, milli Paralimpiya komandamızın "Tokio-2020"də qazanılmış lisenziyaların sayı 32-yə çatıb. Onlardan 11-i cüdo, 8-i atletika, 4-ü parataekvondo, 3-ü üzgüçülük, 4-ü pauerliftinq və 2-si güllə atıcılığı növündəndir.

"Rio-2016" XV Yay Paralimpiya Oyunlarına Azərbaycan millisi 22 lisenziya qazanmışdı.

## Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş şahmat turniri keçirilib

***İyunun 18-də Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ), Azərbaycan Məktəb İdmanları Federasiyası, "İDEA" Şahmat Klubu və 132-134 nömrəli təhsil kompleksinin birgə təşkilatçılığı ilə həmin məktəbin məzunları olmuş Vətən müharibəsi şəhidləri Nicat Tarverdiyev, Yusif Budaqov, Fərid Əliyevin xatirəsinə həsr olunmuş şahmat turniri keçirilib.***



Açıq havada təşkil olunan tədbirdə şəhidlərin ailə üzvləri, döyüş yoldaşları, məktəbin müəllim və şagirdləri iştirak ediblər.

Turnirin açılış mərasimində BŞGİBİ-nin rəisi Raqif Abbasov çıxış edərək 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qazandığı parlaq qələbədən, Vətən uğrunda əsgər və zabitlərimizin qəhrəmanlığından danışıb. O, şəhidlərimizin xatirəsinə həsr olunan turnirlərin davam etdiriləcəyini vurğulayıb.

Təhsil kompleksinin direktoru Sara Xanlarova şəhidlər haqqında məlumat verib, onların xatirə guşəsinin hazırlandığını bildirib.

Sonra şəhid Nicat Tarverdiyevin anası Şükran xanım, şəhid Yusif Budaqovun yaxını Sədaqət Allahyarova və şəhid Fərid Əliyevin həyat yoldaşı Elnarə Əliyeva çıxış edərək xatirə turnirlərinin təşkilinin şəhidlərimizin tanıdılması və vətənpərvərlik hisslərinin gücləndirilməsi baxımından əhəmiyyətini vurğulayıblar.

35 şahmatçının mübarizə apardığı turnirin qalibləri mükafatlandırılıb.

## "İdman və ədalətli oyunlar" mövzusunda rəsm müsabiqəsinin qalibləri mükafatlandırılıb




***Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Ədalətli Oyunlar Komissiyasının və "Olimpiya dünyası" qəzetinin birgə təşkilatçılığı ilə keçirilən "İdman və ədalətli oyunlar" mövzusunda rəsm müsabiqəsinin qaliblərinin iyunun 30-da mükafatlandırılması mərasimi təşkil olunub.***

Tədbirdə MOK-un vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, MOK baş katibinin müavini Azər Əliyev, Xalq rəssamı Ağaəli İbrahimov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

3-8 və 9-16 yaş qrupları üzrə keçirilən müsabiqəyə paytaxt və Naxçıvan ilə yanaşı, 42 bölgədən ümumilikdə 2114 rəsm əsəri daxil olub. Onlardan 1560-ı 9-16, 554-ü isə 3-8 yaş qrupları üzrə qəbul edilib.

Hər iki yaş qrupu üzrə qaliblərə pul mükafatları və diplomlar, 4-10-cu yerlərin sahiblərinə isə həvəsləndirici mükafatlar və diplomlar təqdim olunub.

Mövzuya uyğun çəkilmiş bütün rəsm əsərlərinin sahiblərinə MOK-un Ədalətli Oyunlar Komissiyası tərəfindən sertifikat veriləcək. Bu barədə iştirakçılar e-mail vasitəsilə məlumatlandırılacaqlar.

Qeyd edək ki, rəsmlər hər yaş qrupuna uyğun olaraq, Azərbaycan Rəssamlar İttifaqını təmsil edən peşəkar münsiflər heyəti tərəfindən qiymətləndirilib. Seçim zamanı rəsmin mövzuya uyğunluğu, əsərin sahibi tərəfindən çəkilməsi, kompozisiyanın qurulması, işlənməsi və rəng ahəngi əsas götürülüb.

## Azərbaycan karateçiləri dünya kuboku yarışında 7 medal qazanıblar

***Xorvatiyanın Poreç şəhərində 12-21 yaşadək karateçilər arasında dünya kuboku yarışı keçirilib.***

Turnirə qatılan milli komandamızın üzvlərindən Nuran Rzazadə (67 kq) və İnci Əzizova (50 kq) gümüş medal, Mədinə Sadıqova (55 kq) isə bürünc mükafat qazanıblar.

21 yaşadək qızların kata yarışlarında mükafatsız qalan Emilya Mitilinova parakarate turnirində qızıl medala sahib olub.

Klubları təmsil edən idmançılardan isə 12 yaşlı uşaqlar arasında Vüsal Qənbərov birinci, Məhyəddin Cəfərli ikinci, Marat Semixov (hər üçü - 40 kq) üçüncü yeri tutublar.

Dünya kuboku yarışında 32 ölkədən 464 karateçi iştirak edib.

## Xatirə turnirinin qalibləri mükafatlandırılıb

***İyulun 2-də Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunan yeniyetmələr arasında respublika turnirinin mükafatlandırma mərasimi keçirilib.***



Tədbirdən öncə şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Azərbaycan Məktəb İdmanı Federasiyasının prezidenti Sevinc Hüseynova və Vətən müharibəsi iştirakçısı Samir Muradov çıxışlarında gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsində belə yarışların keçirilməsinin xüsusi əhəmiyyətini vurğulayıblar.

Çıxışlardan sonra qalib komandalar və turnirin hakimləri təltif olunub, onlara kubok və hədiyyələr təqdim edilib.

Turnirin məqsədi şəhidlərimizin xatirəsini əbədiləşdirmək, yeniyetmələr arasında vətənpərvərlik hissini gücləndirmək, şagirdləri sağlam həyat tərzinə istiqamətləndirmək, onların asudə vaxtını səmərəli təşkil etməkdən ibarət olub.

Turnirin proqramına uyğun olaraq Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən bütün rayon və şəhər ümumi təhsil müəssisələrinin şagirdləri minifutbol (13-14 yaş), atletika (13-14 yaş), voleybol (oğlanlar, 14-15 yaş), basketbol (oğlanlar,14-15 yaş) idman növləri üzrə yarışlarda mübarizə aparıblar.

Olimpiya sistemi üzrə təşkil olunan, zona və final mərhələsindən ibarət yarışlarda 2500-dək məktəbli iştirak edib.

## Polislər və idman jurnalistləri bayram günündə üz-üzə gəliblər

***2 iyul - Azərbaycan Polisi Günü və Beynəlxalq İdman Jurnalistləri günü münasibətilə iki sahənin əməkdaşları bir araya gəlib.***




Abşeron rayon Polis İdarəsi və Azərbaycan İdman Jurnalistləri Federasiyasının (AİJF) komandaları arasında Xırdalan şəhərindəki "AAAF Park"da minifutbol matçı keçirilib.

Qarşılaşmadan əvvəl Abşeron rayon Polis İdarəsində (RPİ) rəsmi tədbir təşkil olunub. İdarənin rəisi, polis polkovniki Şəhriyar Şəmşirli polis və idman jurnalistlərinin peşə bayramının eyni günə təsadüf etməsini xoş hal kimi dəyərləndirib. Ş.Şəmşirli həm polis, həm də idman jurnalistlərinin dövlətçiliyə xidmət etdiklərini bildirərək, ölkə rəhbərliyi səviyyəsində hər iki sahəyə böyük diqqət və qayğının göstərildiyini söyləyib.

Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazandığını vurğulayan rəis bu münasibətlə Ordumuzu təbrik edib, şəhidlərə Allahdan rəhmət, qazilərə tezliklə sağalmalarını diləyib.

Ş.Şəmşirli polislər və idman jurnalistlərinin yoldaşlıq görüşündə üz-üzə gəlmələrini yüksək qiymətləndirərək, hər iki komandaya uğurlar arzulayıb.

AİJF prezidenti, əməkdar jurnalist Qabil Mehdiyev belə bir görüşün təşkilinə verdiyi töhfəyə görə Abşeron rayon Polis İdarəsinə təşəkkür edib və bu oyunun jurnalistlər və polislər arasındakı münasibətlərin möhkəmləndirilməsinə xidmət etdiyini bildirib. Q.Mehdiyev həm polisləri, həm də idman jurnalistlərini peşə bayramları münasibətilə təbrik edib.

Görüş zamanı Ş.Şəmşirli AİJF-yə xatirə plaketi, Q.Mehdiyev isə xatirə plaketi və bu yaxınlarda idman jurnalistləri arasında təşkil etdikləri "Qarabağ Azərbaycandır!" turnirində iştirak edən "Kəlbəcər" komandasının formasını təqdim edib.

Ardından Abşeron rayon Polis İdarəsinin əməkdaşları, AİJF İdarə Heyətinin və jurnalistlərdən ibarət komandanın üzvləri Xırdalan şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə üzərinə tər qızılgüllər düzüblər.

Oyun isə Vətən müharibəsi şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq, 1 dəqiqəlik sükutla başlayıb. Görüş daha üstün olan polislərdən ibarət komandanın qələbəsi ilə yekunlaşıb - 4:2. Abşeron RPİ-nin əməkdaşlarından Ruslan Cəfərzadə "het-trik" edib, daha bir qolu Mirağa Quliyev vurub. İdman jurnalistlərindən isə Emin Abbasov və Xanoğlan İmanov fərqlənib. Bundan başqa İmanov penaltini dəqiq yerinə yetirə bilməyib.

Sonda Abşeron rayon İcra Hakimiyyətinin, rayon Gənclər və İdman İdarəsinin, AİJF-nin xatirə diplomları, həmçinin "Zirvə" Beynəlxalq İdman Klublarının vitse-prezidenti Rauf Quliyev tərəfindən xatirə medalları tədbir iştirakçılarına təqdim olunub. Tədbir "Qarabağ Azərbaycandır!" şüarı ilə yekunlaşıb.

# Avrokubok ümidləri: mübarizə əsas yarışla başlanır



***Bakının da evsahibliyi etdiyi qitə futbol çempionatının həyəcanı ölkəmiz üçün ilin əsas futbol yarışı olan Avropa klub kuboklarına da yönəlib.***

Artıq bu həftə Azərbaycan çempionu, uzun illərin həsrətinə son qoymuş ”Neftçi” yaşıl meydana çıxacaq. Qəribə təsadüflə komandanın səfəri çox da uzağa olmayacaq. Rəqib qonşu Gürcüstanın çempionu və ”Neftçi”nin SSRİ çempionatlarında prinsipial ”Qafqaz derbiləri”ndəki rəqibi Tblisi ”Dinamo”sudur. Tarixdə ilk dəfə keçirilən Konfrans liqasının ilk ilində isə ümidləri zirvədən enmiş ”Qarabağ”la yanaşı, ”Keşlə” və ”Sumqayıt” da qüvvəsini sınayacaq. UEFA Konfrans liqasının 2-ci təsnifat mərhələsində ”Qarabağ” ”Aşdod”-la, ”Sumqayıt” Çukariçki (Serbiya) və ”Keşlə” Rusiya Soçisi ilə rəqabət aparacaq.

***Çempionlar Liqası. “Neftçi”***

”Neftçi” budəfəki qitə mübarizəsinə nisbətən yaxşı hazırlaşmaq imkanı əldə edib. Sloveniyada təlim-məşq toplanışını başa vuran komanda sınaq matçlarında yerli ”Olimpiya” (1:1) və ”Domjale” (1:2) ilə qarşılaşıb. Son matçı isə Avstriyada Rusiya paytaxtı Moskvanın ”Spartak”ına qarşı keçirərək 2:1 hesabı ilə qalib gəlib. Yeri gəlmişkən, ”Spartak”la qarşılaşmada fərqlənmiş Harramiz Kita Ferreyra Soareş Portuqaliya ”Eştoril”ində çıxış edib. Ümumən, o, ”Keşlə”dən Sezar Meza Kollini heyətə cəlb etmiş ”Neftçi”nin əsas transfer yeniliyidir. Komanda həmçinin ”Sumqayıt”da icarədə olan Cabir Əmirlini, elə həmin klubdan Xəyal Nəcəfovu heyətə cəlb edib.

Komandanı icarə müddəti başa çatmış cəmi bir neçə ay qalan Keysuke Honda, habelə zədələr səbəbilə meydanda az görünən Əhməd Əhmədov (SSKA, Bolqarıstan), habelə ”Keşlə”yə icarəyə verilmiş Rəhman Hacıyev və Turan Vəlizadə, Səlahət Ağayev (”Sabah”), Anton Krivotsyuk (”Visla”, Polşa), əcnəbilərdən isə Brunu Teluşi, Stiven Monroz, Talisson Dias, Rener Alveş də tərk ediblər.

Kollektiv UEFA-ya sifarişində 22 futbolçunun adını göstərib: qapıçılar - 30.Aqil Məmmədov, 12.Kamran İbrahimov, 94.Əlirza Müştəbəzadə; müdafiəçilər - 3.Mamadu Mboc, 6.Voislav Stankoviç, 20.Mərd Çəlik, 26.Ömər Buludov; yarımmüdafiəçilər - 8.Emin Mahmudov, 10.Sezar Meza Kolli, 11.Harramiz Suares, 19.Fəhmin Muradbəyli, 21.İsmayıl Zülfüqarlı, 24.Yusuf Laval, 27.Fərid Yusifli, 29.Sabir Buqrin, 36.Mamadu Kane, 37.Vüsal Əsgərov, 70.Asim Əlizadə, 72.Emin Zamanov, 97.Xəyal Nəcəfov; hücumçular - 7.Namiq Ələsgərov, 22.Mirabdulla Abbasov.

”Neftçi” ilk oyunu iyulun 7-si (20:00) Boris Payçadze adına ”Dinamo Arena”da, cavab görüşünü isə iyulun 14-ü (21:00) ”Baksell Arena”da keçirəcək. Qalib komanda sonrakı mərhələdə Yunanıstan ”Olimpiakos”unun qonağı olub (220-21 iyul), doğma divarlar arasında cavab matçında (27-28 iyul) qüvvəsini sınayacaq. Məğlub olan isə Çümpiomlar yolu ilə Konfrans liqasına enəcək ”Makkabi” Hayfa (İsrail) və ”Kayrat” (Qazaxıstan) cütünün məğlubu ilə üzüzə qalacaq.

Hər iki halda ”Neftçi”ni mürəkkəb bir yol gözləyir. Çünki ”Qarabağ”ın bu yarışla başlayaraq həm çempionlar liqası, həm də Avropa liqasında qrup mərhələlərinə qədər irəliləməsi, bu səddi klublarımız üçün yeganə uğur səddi edib.

***Konfrans liqası: “Qarabağ”***

Ölkəmizi Konfrans liqasında təmsil edəcək 3 komanda da hazırlığını davam etdirir. Hələlik, səviyyəsi bəlli olan ”Qarabağ” son dəyişikliklərdən sonra irəli böyük addım atmasa da, potensialını və imicini qorumağa çalışır. Kollektiv hazırlığı iki mərhələdə keçirir. Birinci mərhələ Bakıda başa çatıb. İkinci mərhələ isə Avstriyadadır. Burada komanda iyulun 7-də Bolqarıstanın SSKA-sı, 11-də Rusiyanın Tula ”Arsenal”ı, 15-də isə Almaniya Bundesliqasından ”Auqsburq”la qarşılaşacaq. Mahir Emrelini Polşaya yola salmış komanda əsas ümidini 2-illik müqavilə əsasında geri qaytardığı Ramil Şeydayevə yönəldəcək. 2017/2018-ci illər mövsümündə Ağdam təmsilçisinin formasını geyinmiş forvard o vaxt heyətdə möhkəmlənə bilməmişdi. Komanda Portuqaliyadan ”Vilafrankenşe” klubunun üzvü olan 25 yaşlı braziliyalı yarlmmüdafiəçi Kadi Yuri Borceş Malinovskini transfer edib. Heyətdə ”Legiya”ya keçərək Polşaya yola düşmüş Mahir Emrelidən savayı, Ruslan Hacıyev, Hacıağa Hacılı (”Zirə”yə icarə ilə) və Rafael Məhərrəmli (”Keşlə) yoxdurlar.

”Qarabağ” Bakıdakı sparrinqlərində Avrokubok iştirakçıları ”Keşlə”ni 7:0, ”Sumqayıt”ı isə 3:1 hesabları ilə məğlub edib.

UEFA Konfrans liqasının 2-ci təsnifat mərhələsində ”Qarabağ” ”Aşdod” klubu ilə iyulun 22-də (20:00) Tofiq Bəhramov adına Respublika stadionunda, iyulun 29-u isə İsraildə oynayacaq.

***Konfrans liqası: “Sumqayıt”***

”Sumqayıt” hazırlığın ikinci mərhələsi üçün iyulun 2-dən Türkiyənin Ankara şəhəri yaxınlığında Qızılcahamamdadır. Dörd yoxlama oyun keçirməyi planlaşdıran komanda toplanışın birinci mərhələsində yalnız ”Qarabağ”la qarşılaşıb və uduzub 1:3.

Komandanın transfer və oyun kursunu dəyişəcəyi deyilsə də, hələlik ”Qəbələ”dən Tərlan Əhmədli, Yusif Nəbiyev, Roman Hüseynovu və ”Keşlə”dən Xəzər Məhmudovu heyətinə cəlb etməklə kifayətlənib. Komandanı Mehdi Cənnətov (”Zirə”), Mehdi Şərifi, Cavid İmamverdiyev, icarə müddəti bitərək ”Neftçi” yə keçmiş Cabir Əmirli və həmin kluba keçmiş Xəyal Nəcəfov tərk ediblər.

”Sumqayıt” Serbiya ”Çukariçki”si ilə ilk oyunu iyulun 22-si səfərdə və 29-da evdə keçirəcək.

***Konfrans liqası: ”Keşlə”***

Azərbaycanın ”Avropa dördlüyü”ndən ən zəif bəndi kimi yeni mövsümə gedən ”Keşlə” hazırlıqlar çərçivəsində ”Qarabağ”la görüşdən darmadağınlıq nəticə ilə ayrılmaqla, hələ qarşıda çox dəyişikliklərə ehtiyac olduğunu bir daha əyani nümayiş etdirdi. Komanda heyətini də əsaslı dəyişib. Sezar Meza Kolli (”Neftçi”) və Xəzər Mahmudovdan (”Sumqayıt”) savayı, komandanı Türkiyəyə üz tutmuş Vüsal İsgəndərli (”Keçiörəngücü”), Con Kamara, Sadio Tounkara, Silvio Rodriges, Yevgeni Koçuk, Elvin Yunuszadə, Bahadur Həziyev tərk ediblər. Gələnlərin cərgəsi də seyrək deyil. Amil Yunanovu ”Səbail”dən transfer etmiş kollektivin bu mövsümdə əcnəbiləri 1 illik müqavilə bağladığı braziliyalı Felipe Santeş (”Maribor”, Sloveniya), Şimali Makedoniyanın ”Pelister”indən gəlmiş iki hücumçu - seneqallı Umar Qudiabi və portuqaliyalı Aldair Sapalu Amaru Netudur. Gürcüstanlı Merab Giqauri isə ”Qəbələ”dən gəlib. Heyətdə Rəhman Hacıyev və Turan Vəlizadə (hər ikisi ”Neftçi”, icarə əsasında), Elçin Mustafayev (”Sabah”, icarə), Umar Kudiabi də var.

”Keşlə” Avropa macərasına Soçidə başlayıb, Bakıda davam etdirməlidir.

Göründüyü kimi, komandalarımızı bu il mürəkkəb oyunlar seriyası gözləyir.

***BATI YAR***



# “Kəndlərdə idmanı inkişaf etdirək” layihəsi Füzulidə



***Füzuli rayonunun Qazaxlar kəndində ”Kəndlərdə idmanı inkişaf etdirək” layihəsi çərçivəsində tədbir təşkil olunub.***

Tədbirdə iştirak edən qonşu Əhmədalılar və Mirzənağılı kəndlərindən ümumilikdə 50 məktəbli uşaqlar arasında futbola marağı artırmaq məqsədilə idman geyimləri və futbol topları verilib.

Tədbirdə AFFA-nın vitse-prezidenti, Azərbaycan Uşaq və Gənclər Futbol Federasiyasının prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev, deputatlar Vüqar Bayramov və Sabir Hacıyev iştirak ediblər.

Qeyd edək ki, ”Kəndlərdə idmanı inkişaf etdirək” layihəsi Prezident İlham Əliyevin 2019-cu il dekabrın 25-də Azərbaycan Milli Olimpiya Komitəsində idmançılarla görüşü zamanı kəndlərdə idmanın inkişafına dair verdiyi tövsiyələrin yerinə yetirilməsi istiqamətində həyata keçirilir.

AFFA-nın təşəbbüsü ilə 2020-ci il ərzində karantin rejiminin tələblərinə əməl olunmaqla respublikamızın müxtəlif bölgələrində yerli icra hakimiyyəti orqanları ilə birlikdə layihə çərçivəsində tədbirlər təşkil edilib.

# Yeniyetmə güləşçilərin tarixi uğuru

***Bolqarıstanın Samokov şəhərində yeniyetmə güləşçilərin Avropa çempionatı keçirilib.***



Yarışa ilk başlayan sərbəst güləşçilərimiz 3 gümüş və 1 bürünc medala sahib olublar. Cavid Cavadov (51 kq), Abdulrəhman İbrahimov (60 kq), Musa Verdiyev (48 kq) gümüş, Yusif İsparov (45 kq) bürünc medal qazanıblar.

Yunan-Roma güləşi üzrə millimiz qitə birinciliyində tarixi uğura imza atıb. Məsul yarışda ölkəmizi 9 güləşçi təmsil edib ki, onların da 7-si fəxri kürsüyə qalxıb. Rahim Həsənov (45 kq), Fəraim Mustafayev (48 kq), Fərid Baxışlı (55 kq) və Fərid Xəlilov (60 kq) Avropa çempionu olublar. Pərviz Dadaşov (51 kq), Kənan Abdullazadə (65 kq) və Ruslan Nurullayev (71 kq) üçüncü yeri tutublar.

Beləliklə, 4 qızıl və 3 bürünc medal qazanan yunan-Roma yığmamız 153 xal toplayaraq Azərbaycan güləş tarixində ilk dəfə Avropa çempionu olub.

Qeyd edək ki, komandamız 10 çəkidən 9-da təmsil olunmasına baxmayaraq, ən yaxın izləyicisi olan Gürcüstanı 21, üçüncü yeri tutan Ukraynanı isə 43 xal qabaqlayıb.

Qızların yarışında Zenfira Həşimova (46 kq) bürünc medal qazanıb.

Beləliklə, yeniyetmə Azərbaycan güləşçiləri Avropa çempionatında ümumilikdə 12 medal - 4 qızıl, 3 gümüş və 5 bürünc medal qazanıblar.

# “İdman jurnalistikası” mövzusunda onlayn konfrans keçirilib

***Azərbaycan İdman Jurnalistləri Federasiyasının (AİJF) və Azərbaycan İdman Könüllüləri İctimai Birliyinin təşkilatçılığı ilə ”İdman jurnalistikası” mövzusunda onlayn konfrans keçirilib.***

Konfransda çıxış edən Birliyin sədri Miraqil Seyidzadə 2 iyul - Beynəlxalq İdman Jurnalistləri Günü ilə əlaqədar idman mətbuatının nümayəndələrinə təbriklərini çatdırıb.

AİJF-nin idarə heyətinin üzvü Sənan Şəfizadə jurnalist yanaşmasından, gənclərin jurnalistikaya marağından, müsahibə üçün vacib qaydalardan, idman jurnalistikasındakı problemlərdən və onların həll yollarından bəhs edib.

Konfransda, həmçinin yaxın günlərdə keçiriləcək ”Könüllü jurnalist” layihəsi haqqında da məlumat verilib. Sonda könüllüləri maraqlandıran suallar cavablandırılıb.

# Avropanın Azərbaycan imzalı yubiley çempionatı son mərhələsində



*(Əvvəli 1-ci səhifədə)*

Avropa çempionatı dünya kuboku ilə yanaşı, dünya idmanında ən çox tamaşaçı və izləyici toplayan yarışıdır. 2020-ci ildə yubiley xarakterli çempionatın müxtəlif şəhərlərdə keçirilməsinin özəllikləri "COVID-19" pandemiyası səbəbilə təxirə salınsa, daha sonra ləğv olumaq təhlükəsi ilə üz-üzə qalsa da, turnirin vüsəti bütün bədbin proqnozları alt-üst etdi. Hətta fərqli şəhərlərdə keçirilən yarış sərhədləri bağladan, insanları evlərinə-mənzillərinə qapadan, iqtisadiyyata hökm oxumaq istəyən koronavirus bəlasına bir dirəniş nümunəsi oldu. Ən əsası, meydandakı mübarizə "çörək və tamaşa" prinsipinin bir müsbət cəhəti ilə "Avro-2020" çətinliklərdən birgə qalib çıxmağın yolunu da göstərdi.

Əlbəttə, qitə çempionatının rəmzi üstünlüklərindən danışmaq imkanımız turnirdən sonra olacaq. Lakin meydandakı mübarizə futbolun dünəni, gələcəyi və bu günü baxımından ibrətamiz keçir. Sensasiyalar, statistik göstəricilər, rekordlar, meydan mübarizəsi, proqnozlara rəğmən nəticələr, Avropa çempionatlarında ilk dəfə Bakıda tətbiq edilən VAR sisteminin oyunların nəticəsinə təsiri, bir sözlə, qitə çempionatından sonra müzakirə mövzusu olacaq çox məsələ indidən var.

Əlbəttə, "A" qrupunun iki matçında sanki öz evində oynayırmış kimi rəğbət və dəstək alan Türkiyə millisinin gözlənilməz uğursuzluğu bu gün əsas müzakirə mövzusudur. Doğrudur, çempionatın ən gənc komandası olsa da, heyətin imkanları bu turnirdə, əsla özünü qismən də olsa, büruzə vermədi. Səbəblərdən danışsaq, taktiki çiylik və bu xüsusda xətlərarası əlaqənin olmaması sözünü deyir. Lakin elə ilk oyunlardan yarışın favoritlərindən biri kimi parlayan İtaliya, həmçinin oyun quruculuğu baxımından İsveçrə millisi, habelə son illərdə yetişən nəsil sayəsində ən parlaq dövrünü keçirən Uels seçməsi turnirin qazandığı marağın formalaşmasında xüsusi rol oynadılar.

Əgər favoritlərdən bəhs ediriksə, Belçika və eləcə də İngiltərə komandalarının da adları xüsusi çəkilməlidir. Bu xüsusda İtaliya və İngiltərə əvvəlki tarixlərindən də fərqli bir komanda ilə meydandadır. İtaliya dünya miqyasında xüsusi qeyd edilən lideri olmadan, lakin komanda oyunu ilə diqqət çəkir. Bu səbəbdən hər bir mövqe və oyun elementi ilə bu komandanın qitə çempionatı tarixinə yazmağa sözü var. İngiltərə millisi də eynilə bir sıra tipik ingilis futbolu ənənələrindən uzaqlaşmağa başlayıb. Burada hər bir futbolçunun personal keyfiyyəti ilə yanaşı, məşqçinin iki fərqli nəslin nümayəndələrindən optimal heyət formalaşdırılmasını da qeyd etmək olar.

İtaliya ilə başabaş rəqabətdə məğlub olan Belçika millisi isə bəlkə də daha yüksək pilləyə sıçraya bilərdi. Lakin qarşısında mütəşəkkil komanda onun əsas maneəsi oldu. Eyni zamanda, Belçika millisinin çatışmayan əsas cəhəti, zənnimcə, iddialı heyətin güclü olmaq üçün komanda kimi birləşdirən psixoloji inam amilinin də öz rolu oldu.

Tarixin tərsliyi ilə bir qrupda cəmləşmiş və artıq postunu təhvil verdiyi məlum olan Portuqaliya dünya çümpionu titulunun sahibi Fransa, habelə güclü "maşın" Almaniya milliləri, həm də bu turnirin doymuş buzarı kimi çempionatın küləyi ilə əridilər. Doğrudur, Portuqaliya bütün imkanları ilə savaşdı, mübarizə apardı, lakin nəsillər arasında təzad və potensial imkan sözünü dedi. Fransa isə təkcə qayıdışı ilə sürpriz vəd edən Benzeması ilə olsa belə, tək əldən səs çıxmadığını və yeni dövrdə yeni komanda quruculuğunun zəruri olduğunu bir daha əyani göstərdi. Çünki bu fərqlərlə çatışmayan əsas məsələ - mütəşəkkillik komandanın əsas maneəsi oldu. Almaniya millisində isə baş məşqçinin son mundial zəfərindən sonra nəsil yenilənməsi prosesinin qırıq-qırıq aparılması və heç özünə bənzəmədən Yoaxim Lövün qəfil qərarsızlıqları da bugünkü nəticələrdə və komandanın simasında əksini tapır.

*(Ardı 7-ci səhifədə)*



### "A" qrupu

**16 iyun. Bakı.** Türkiyə - Uels 0:2 (Aaron Remzi, 42, Konnor Roberts, 90+5).
**16 iyun. Roma.** İtaliya - İsveçrə 3:0 (Manuel Lokatelli, 26, Manuel Lokatelli, 52, Çiro İmmobile, 89).
**20 iyun. Bakı.** İsveçrə - Türkiyə 3:1 (Haris Səfəroviç, 6, Şerdan Şakiri, 26, 68//İrfan Can Qəhvəçi, 62).
**20 iyun. Roma.** İtaliya - Uels 1:0 (Matteo Pessina, 39).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. İtaliya | 3 | 3 | 0 | 0 | 7-0 | 9 |
| 2. Uels | 3 | 1 | 1 | 1 | 3-2 | 4 |
| 3. İsveçrə | 3 | 1 | 1 | 1 | 4-5 | 4 |
| 4. Türkiyə | 3 | 0 | 0 | 3 | 1-8 | 0 |

### "B" qrupu

**16 iyun. Sankt-Peterburq.** Finlandiya - Rusiya 0:1 (Aleksey Mirançuk, 45+2).
**17 iyun. Kopenhagen.** Danimarka - Belçika 1:2 (Yusuf Poulsen, 2, Kevin de Breyne, 70//Torqan Azar, 55).
**21 iyun. Kopenhagen.** Rusiya - Danimarka 1:4 (Artyom Dzyuba, 70-pen.//Mikkel Damsqaard, 38, Yusuf Poulsen, 59, Andreas Xristensen, 79, Yoakim Mehle, 82).
**21 iyun. Sankt-Peterburq.** Finlandiya - Belçika 0:2 (Lukaş Hradeçki, 74-öz qap., Romelu Lukaku, 81).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Belçika | 3 | 3 | 0 | 0 | 7-1 | 9 |
| 2. Danimarka | 3 | 1 | 0 | 2 | 5-4 | 3 |
| 3. Finlandiya | 3 | 1 | 0 | 2 | 1-3 | 3 |
| 4. Rusiya | 3 | 1 | 0 | 2 | 2-7 | 3 |

### "C" qrupu

**17 iyun. Buxarest.** Ukrayna - Şimali Makedoniya 2:1 (Andriy Yarmolenko, 29, Roman Yaremçuk, 34//Özcan Əlioski, 57).
**17 iyun. Amsterdam.** Niderland - Avstriya 2:0 (Memfis Depay, 11-pen., Denzel Dumfris, 67).
**21 iyun. Amsterdam.** Şimali Makedoniya - Niderland 0:3 (Memfis Depay, 24, Corcinyo Veynaldum, 51, 58).
**21 iyun. Buxarest.** Ukrayna - Avstriya 0:1 (Kristof Baumqartner, 21).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Niderland | 3 | 3 | 0 | 0 | 8-2 | 9 |
| 2. Avstriya | 3 | 2 | 0 | 1 | 4-3 | 6 |
| 3. Ukrayna | 3 | 1 | 0 | 2 | 4-5 | 3 |
| 4. Şm.Makedoniya | 3 | 0 | 0 | 3 | 2-8 | 0 |

### "D" qrupu

**18 iyun. Qlazqo.** Xorvatiya - Çex Resp. 1:1 (İvan Perişiç, 47//Patrik Şik, 37-pen.).
**18 iyun. London.** İngiltərə - Şotlandiya 0:0.
**22 iyun. Qlazqo.** Xorvatiya - Şotlandiya 3:1 (Nikola Vlaşiç, 17, Luka Modriç, 62, İvan Perişiç, 77//Kallum Makqreqor, 42).
**22 iyun. London.** Çex Resp. - İngiltərə 0:1 (Rəhim Sterlinq, 12).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. İngiltərə | 3 | 2 | 1 | 0 | 2-0 | 7 |
| 2. Xorvatiya | 3 | 1 | 1 | 1 | 4-3 | 4 |
| 3. Çex Resp. | 3 | 1 | 1 | 1 | 3-2 | 4 |
| 4. Şotlandiya | 3 | 0 | 1 | 2 | 1-5 | 1 |

### "E" qrupu

**14 iyun. Sankt-Peterburq.** Polşa - Slovakiya 1:2 (Karol Linettı, 46//Voytsex Şensnı, 18-öz qap, Milan Şkrinyar, 69).
**14 iyun. Sevilya.** İspaniya - İsveç 0:0.
**18 iyun. Sankt-Peterburq.** İsveç - Slovakiya 1:0 (Emil Forsberq, 77-pen.).
**19 iyun. Sevilya.** İspaniya - Polşa 1:1 (Alvaro Morata, 25//Robert Levandovski, 54).
**23 iyun. Sevilya.** Slovakiya - İspaniya 0:5 (Martin Dubravka, 30-öz qap., Emerik Lyaport, 45+3, Pablo Sarabia, 56, Ferran Torres, 67, Yuray Kutska, 71-öz qap.).
**23 iyun. Sankt-Peterburq.** İsveç - Polşa 3:2 (Emil Forsberq, 2, 59, Viktor Klaesson, 90+4//Robert Levandovski, 61, 84).

| | O | Q | H | M | TX | |
|---|---|---|---|---|---|---|
| 1. İsveç | 3 | 2 | 1 | 0 | 4-2 | 7 |
| 2. İspaniya | 3 | 1 | 2 | 0 | 6-1 | 5 |
| 3. Slovakiya | 3 | 1 | 0 | 2 | 2-7 | 3 |
| 4. Polşa | 3 | 0 | 1 | 2 | 4-6 | 1 |

### "F" qrupu

**15 iyun. Budapeşt.** Macarıstan - Portuqaliya 0:3 (Rafael Gerreyru, 84, Kriştianu Ronaldu, 87-pen, 90+2).
**15 iyun. Münxen.** Fransa - Almaniya 1:0 (Mats Hummels, 20-öz qap.).
**19 iyun. Budapeşt.** Macarıstan - Fransa 1:1 (Ottilo Fiolo, 45+2, Antuan Qrizmann, 66).
**19 iyun. Münxen.** Portuqaliya - Almaniya 2:4 (Kriştianu Ronaldu, 15, Dioqu Jota, 67//Ruben Diaş, 35-öz qap., Rafael Gerreyru, 39-öz qap., Kay Havers, 51, Robin Qosens, 60).
**23 iyun. Budapeşt.** Portuqaliya - Fransa 2:2 (Kriştianu Ronaldu, 31- pen., 60-pen.//Kərim Benzema, 45+2-pen., 47).
**23 iyun. Münxen.** Almaniya - Macarıstan 2:2 (Kay Havers, 66, Leon Qoretska, 84//Adam Soloi, 11, Ondraş Şefer, 68).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Fransa | 3 | 1 | 2 | 0 | 4-3 | 5 |
| 2. Almaniya | 3 | 1 | 1 | 1 | 6-5 | 4 |
| 3. Portuqaliya | 3 | 1 | 1 | 1 | 7-6 | 4 |
| 4. Macarıstan | 3 | 0 | 2 | 1 | 3-6 | 2 |

### 1/8 final

**26 iyun. Amsterdam.** Uels - **Danimarka 0:4** (Kasper Dolberq, 27, 48, Yoakim Mehle, 88, Martin Breytveyt, 90+6).
**26 iyun. London. İtaliya** - Avstriya **2:1 (0:0)-ə.v.** (Federiko Kyeza, 95, Matteo Pessina, 105//Saşa Kalayciç, 114).
**27 iyun. Budapeşt.** Niderland - **Çex Resp. 0:2** (Tomaş Holeş, 68, Patrik Şik, 80).
**27 iyun. Sevilya. Belçika** - Portuqaliya 1:0 (Torqan Azar, 42).
**28 iyun. Kopenhaqen.** Xorvatiya - **İspaniya** 3:5 - ə.v. (Pedri, 20-öz qap., Mislav Orşiç, 85, Mario Paşaliç, 90+2//Pablo Sarabia, 38, Sesar Aspilikueta, 57, Ferran Torres, 77, Alvaro Morata, 100, Mikel Oyarsabal, 103).
**28 iyun. Buxarest.** Fransa - **İsveçrə 3:3 (3:3;** Kərim Benzema, 57, 59, Pol Poqba, 75//Haris Səfəroviç, 15, 81, Mario Qavranoviç, 90) **- 4:5-pen. ilə.**
***Penatilər (İsveçrə - Fransa):*** Mario Qavranoviç - Pol Poqba; Fabian Şer - Olivye Jiru; Manuel Akanci - Markus Türam; Ruben Varqas - Presnel Kimpembe; Admir Məhmədi - Kilian Mbappe (-, qapıçı).
**29 iyun. London. İngiltərə** - Almaniya **2:0** (Rəhim Sterlinq, 75, Harri Keyn, 86).
**29 iyun. Qlazqo.** İsveç - **Ukrayna 1:2 (1:1) - ə.v.** (Emil Forsberq, 43//Oleksandr Zinçenko, 27, Artyom Dovbık, 120+1).

### 1/4 final

**2 iyul. Sankt-Peterburq.** İsveçrə - **İspaniya 1:1 (1:1) - ə.v.** (Cerdan Şakiri, 68//Denis Zəkəriyə, 8-öz qap.) **- pen ilə 1:3.**
***Penaltilər (İspaniya - İsveçrə):*** Serxio Buskets, (-, dirək) - Mario Qavranoviç; Dani Olmo - Fabian Şer (-, qapıçı); Rodri (-, qapıçı) - Manuel Akanci (-, qapıçı); Jerar Moreno - Ruben Varqas (-, tir üzərindən); Mikel Oyarsabal.
**2 iyul. Münxen.** Belçika - **İtaliya 1:2** (Romelu Lukaku, 45+2-pen.//Nikolo Barella, 31, Lorenso İnsinye, 44).
**3 iyul. Bakı. Danimarka** - Çex Respublikası **2:1** (Tomas Dileyni, 5, Kasper Dolberq, 42//Patrik Şik, 49).
**3 iyul. Roma.** Ukrayna - **İngiltərə 0:4** (Harri Keyn, 4, 50, Harri Maquayr, 46, Cordan Henderson, 63).

**1/2 final. London. "Uembli" stadionu.**

6 iyul. İspaniya - İtaliya
7 iyul. Danimarka - İngiltərə

**Final. London. "Uembli" stadionu.**

11 iyul.

# Gənc güləşçilərimizin qitə uğuru



*Almaniyanın Dortmund şəhərində gənc güləşçilərin Avropa çempionatı keçirilib.*

İlk olaraq mübarizəyə qoşulan sərbəst güləş millimiz 3 qızıl və 1 gümüş medalla komanda hesabında 3-cü yeri tutub.

Turan Bayramov (70 kq) yarışa Almaniya güləşçisi üzərində inamlı qələbə ilə start verib. T.Bayramov 1/4 finalda daha əvvəl bir neçə dəfə məğlub etdiyi Narek Harutyunyanla qarşılaşıb. Ənənəsinə sadiq qalaraq Ermənistan güləşçisinə növbəti dəfə qalib gələn T.Bayramov adını yarımfinala yazdırıb. Bu mərhələdə Gürcüstan idmançısını da üstələyərək finala yüksəlib. Həlledici görüşdə Moldova güləşçisinə qalib gələn idmançımız Avropa çempionu olub.

Kənan Heybətov (61 kq) ilk görüşdə ukraynalı idmançını minimal hesabla üstələyib. Fransa təmsilçisi üzərində də inamlı qələbə qazanan həmyerlimiz adını yarımfinala yazdırıb və Gürcüstan pəhləvanına da gücünü göstərərək finala vəsiqə qazanıb. Həlledici və prinsipial görüşdə Ermənistan idmançısıyla qarşılaşan K.Heybətov əsl əzmkarlıq nümayiş etdirərək qələbə qazanıb və Avropa çempionu olub.

Cəbrayıl Hacıyev (74 kq) ilk mərhələdə Moldova güləşçisinə qalib gəlib. Təmsilçimiz daha sonra Rusiya təmsilçisini "tuşe" ilə məyus edib. C.Hacıyev macar rəqibindən də güclü olub və yarımfinala yüksəlib. Finalın bir addımlığında gürcü pəhləvanla mübarizə dramatik alınıb. Görüş boyunca gah bu, gah da digər güləşçi hesabda önə çıxıb. Əzmkarlıq nümayiş etdirən C.Hacıyevin son saniyələrdəki uğurlu fəndi həlledici olub və yığma üzvünü finala daşıyıb. Güləşçimiz həlledici görüşdə tam üstünlüklə türk həmkarına qalib gələrək komandamıza 3-cü qızıl medalı qazandırıb.

Mübarizəyə 1/4 finaldan qoşulan Aydın Əhmədov (125 kq) Macarıstan güləşçisinə sonuncu xal prinsipinə əsasən qalib gəlib. A.Əhmədov yarımfinalda Ukrayna idmançısından da güclü olub. Final görüşündə rəqibinə məğlub olan güləşçimiz çempionatın gümüş medalını qazanıb.

Beləliklə, 3 qızıl və 1 gümüş medal qazanan yığmamız 119 xal toplayaraq komanda hesabında Avropa 3-cüsü olub. Rusiya (185) birinci, Türkiyə (126) isə ikinci pillədə qərarlaşıblar.

Sonuncu dəfə analoji yarışda sərbəst güləşdə belə yüksək nəticə 2017-ci ildə qeydə alınıb. Maraqlıdır ki, həmin qitə birinciliyi də məhz Dortmundda keçirilmişdi. Komandamız 3 qızıl, 2 gümüş və 1 bürünc medal qazanmışdı.

Yunan-Roma güləşi üzrə yarışda Qurban Qurbanov (63 kq) debütdə Moldova təmsilçisindən güclü olub. Həmyerlimiz daha sonra İtaliya idmançısına tam üstünlüklə qalib gəlib. Türkiyədən olan rəqibini də vaxtından əvvəl məğlub edən Q.Qurbanov yarımfinalda bolqarıstanlı rəqibini də inamla üstələyib. Finalda gürcü rəqibinə yenilən güləşçimiz gümüş medalla kifayətlənib.

Nihat Məmmədli (60 kq) ilk görüşdə erməni rəqibinə gücünü göstərib, daha sonra yerli pəhləvanı sonuncu xal prinsipinə əsasən üstələyərək yarımfinala yüksəlib. Finalın bir addımlığında Rusiya güləşçisi ilə gərgin idman mübarizəsi şəraitində keçən görüşdən məğlub ayrılan təmsilçimiz bürünc medal uğrunda görüşdə Belarus təmsilçisinə qalib gəlib.

Həsrət Cəfərov (67 kq) 1/8 finalda Macarıstan güləşçisini cəmi 1 dəqiqə 35 saniyəyə xalçadan məyus yola salıb. H.Cəfərov Bolqarıstan idmançısını da vaxtından əvvəl yolundan kənarlaşdırıb və adını yarımfinala yazdırıb. Gürcüstan güləşçisi ilə qarşılaşmanın əvvəlindən sonunadək dominantlıq edən təmsilçimiz finala vəsiqə qazanıb. Qızıl medal uğrunda görüşdə idmançımız türkiyəli rəqibi üzərində inamlı qələbə qazanaraq çempion olub.

Xasay Həsənli (72 kq) Çexiya idmançısına elə ilk hissədə qalib gələrək yarışa inamlı start verib. Həmyerlimiz 1/8 finalda rumıniyalı rəqibinin kürəyini yerə sıxıb. Ancaq X.Həsənli 1/4 finalda gürcü həmkarı ilə bacarmayıb. Rəqib finala yüksəldiyi üçün güləşçimiz iyulun 4-də təsəlliverici görüşə çıxıb. Bürünc medal görüşündə idmançımız xorvatiyalı rəqibə "tuşe" ilə qalib gəlib.

# Avropanın Azərbaycan imzalı yubiley çempionatı son mərhələsində

(Əvvəli 6-cı səhifədə)

Xorvatiya və Ukrayna millilərinin hər birinin öz maneəsi məhz kadr bazası prinsiplərinə söykənir. Əgər Xorvatiyada bu problem oyunçuların xəlitəsi və imkanlar baxımından bir o qədər də özünü büruzə vermirsə, Ukrayna komandasında kollektivin elə baş məşqçisi Andriy Şevçenkonun da sözləri ilə desək, hələlik boyundan yuxarı tullanmaq üçün lazım olan kadr potensialı yoxdur. Lakin bu xüsusda ümidlər də göz önündədir. Bu mənada yəqin Danimarka millisindən xüsusi söz açmaq olar. Bu yarışda komanda, zənnimcə, inkişaf yolunu tapmaq istəyən bütün ölkələrə nümunədir. Elə Azərbaycan futbolunda da inkişaf konsepsiyasını necə cızmaq mümkün olduğunu da məhz "Qırmızı sap" ("Den rod trad") konsepsiyası ölkə futbolunu 1990-cı illərdəki əfsanəvi nəsillərin izinə yaxınlaşdırıb. Ən azı, ölkədə yeni nəsillərin formalaşdırılması üçün münbit şərait yaranıb və ən əsası, bu proqram ardıcıl olaraq, son 15 il ərzində bugünkü nəticələrə gəlib çatmağa imkan verib.

Əlbəttə, turnirin uğursuzlarından və bu yarışda iştirakı özü uğur olanlardan da bəhs etmək mümkündür. Lakin onların da hər biri yalnız Azərbaycan millisi barədə söhbətlərimizdə bizim üçün aktual olacaq və bu barədə elə sentyabrdan başlayaraq söz aça biləcəyik.

***BATI YAR***

# Dünya kubokunda rəqiblər bəllidir

***İyulun 10-da Rusiyanın Soçi şəhərində şahmat üzrə dünya kuboku yarışları start götürəcək.***

Dünya kubokunda ölkəmiz kişilərin yarışında Şəhriyar Məmmədyarov, Vasif Durarbəyli, Nicat Abasov, qadınların mübarizəsində isə Günay Məmmədzadə, Ülviyyə Fətəliyeva, Türkan Məmmədyarova, Gülnar Məmmədova ilə təmsil olunacaq.

Şahmatçılarımızın ilk mərhələdəki rəqibləri bəllidir. Kişilərin yarışında 1/128 final mərhələsindən yalnız Vasif Durarbəyli mübarizəyə qoşulacaq. Digər təmsilçilərimiz isə mübarizəyə 1/64 final mərhələsindən başlayacaqlar.

V.Durarbəyli ilk mərhələdə Finlandiyanı təmsil edən Dmitri Sklyarovla qarşılaşacaq. Bu cütün qalibini isə növbəti mərhələdə rusiyalı Aleksandr Predke gözləyəcək. Kişilərin yarışında digər təmsilçilərimiz - Şəhriyar Məmmədyarov Braziliyanı təmsil edən erməni əsilli Krikor Mxetaryan və meksikalı Karlos Zamora, Nicat Abasov isə venesuelalı Pedro Ramon Reyes və Ermənistan təmsilçisi Şant Sarqisyan cütlərinin qalibləri ilə qarşılaşacaqlar.

Qadınların yarışına gəlincə, 1/64 finalda Türkan Məmmədyarova kubalı Tereza Ordaz Valdez, Gülnar Məmmədova estoniyalı Mai Narva, Ülviyyə Fətəliyeva isə hindistanlı Raut Padmini ilə üz-üzə gələcəklər. Qadınların yarışında dördüncü təmsilçimiz, Azərbaycanın ən güclü qadın şahmatçısı Günay Məmmədzadə isə mübarizəyə 1/32 final mərhələsindən qoşulacaq. Təmsilçimizin bu mərhələdə rəqibi slovakiyalı Laura Unuk və suriyalı Şafa Şrukun cütünün qalibi olacaq.

Dünya kuboku yarışlarında iştirak edəcək şahmatçıları ciddi qadağalar gözləyir.

Sanitar-gigiyenik qaydalardan başqa, şahmatçıların geyimlərinə də ciddi nəzarət olunacaq. Belə ki, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) yaydığı məlumata əsasən, yarış zamanı şahmatçıların idman köynəkləri, ayaqqabıları və digər qeyri-rəsmi geyimlərdə olması qadağan edilir.

# Gənc cüdoçularımız Avropa kuboku yarışını 4 medalla başa vurublar

***Portuqaliyanın Koimbra şəhərində gənc cüdoçular arasında Avropa kuboku yarışı keçirilib. Yarışda 24 ölkədən 306 cüdoçu iştirak edib.***



Turnirin ilk günü Turan Bayramov (60 kq) qızıl, Nəriman Mirzəyev (66 kq) isə bürünc medala layiq görülüb.

Yarışın son günü Azərbaycan cüdoçuları daha 2 bürünc medal qazanıblar. Belə ki, Elcan Hacıyev (81 kq) və Ruslan Nəsirli (100 kq) turnirdə üçüncü yeri tutublar. Beləliklə, milli komandamız Avropa kubokunu 1 qızıl və 3 bürünc medalla başa vurub.

# Tokioda bayraqdarımız Rüstəm Orucov olacaq



***"Tokio-2020" XXXII Yay Olimpiya Oyunlarında Azərbaycan komandasının bayraqdarı müəyyənləşib.***

Cüdo üzrə Olimpiya Oyunlarının gümüş mükafatçısı, Avropa çempionu, dünya çempionatının gümüş mükafatçısı Rüstəm Orucov Azərbaycan Milli Olimpiya Komitəsi rəhbərliyinin yekun qərarı ilə Tokio-2020-də milli komandamızın bayraqdarı seçilib. O, Yaponiya paytaxtında keçiriləcək Yay Olimpiya Oyunlarının açılış mərasimində Azərbaycan bayrağını daşıyacaq.

# Akrobatika gimnastlarımızdan bürünc medal

İsveçrənin Cenevrə şəhərində keçirilən akrobatika gimnastikası üzrə 11-ci dünya yaş qrupları yarışları komandamız üçün bürünc medalla yekunlaşıb.

Yarışların sonuncu günü Mənsumə Məmmədzadə, Leyla Bəşirova və Nəzrin Fərmanovadan (12-19 yaş qrupu) ibarət qadın qrupumuz qarışıq hərəkətlər proqramı üzrə final çıxışlarına görə fəxri kürsünün üçüncü pilləsində yerlərini alıblar.

Bu medal qızlarımızın belə irimiqyaslı bir yarışdan əldə etdikləri ilk medaldır. Bu, həm də gimnastika tariximiz üçün məhz dünya yaş qrupları yarışlarında qadın qrupu proqramında əldə olunan ilk nəticədir.

Finalçılar arasında Milana Əliyeva və Nizam Xamidulindən (12-19 yaş qrupu) ibarət qarışıq cütlüyümüz də yer alıb. Dünya birinciliyində ilk dəfə çıxış edən cütlüyümüzü mükafatçılar kürsüsündən gimnastlarımızın boylarındakı fərqə görə verilən cərimə xalı ayırıb. Onlar həlledici mərhələdə 5-ci olublar.

Dünya yaş qrupları yarışlarında ölkəmiz həm də 11-17 yaş qrupunda Zəhra Bakıxanova, Leyla Əsgərova və Xanım Məmmədzadədən ibarət qadın qrupu, 13-20 yaş kateqoriyasında Mehriban Salamova və Sabir Ağayevdən ibarət qarışıq cütlük, həmçinin Samirə Rüstəmova və Rauf Cabbarovdan ibarət 12-19 yaş qrupunda daha bir cütlüklə təmsil olunub.

# Azər Həsənov Beynəlxalq Universal Döyüş Federasiyasının prezidenti seçilib

Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti Azər Həsənov Beynəlxalq Universal Döyüş Federasiyasının prezidenti seçilib. A.Həsənov Litvanın paytaxtı Vilnüsdə keçirilən seçkilərdə nümayəndələrin əksəriyyətinin səsini alıb.

Azər Həsənov Beynəlxalq Universal Döyüş Federasiyasının prezidenti vəzifəsinə beş il müddətinə seçilib. Beynəlxalq federasiyanın digər rəhbər orqanlarına seçkilər gələn ay keçiriləcək.

Xatırladaq ki, təşkilatın sabiq rəhbəri Sergey Novikov iki ay əvvəl vəfat edib.

# Avropa kubokundan bir dəst medal

***Xorvatiyada yeniyetmə cüdoçular arasında Avropa kuboku turniri keçirilib. Azərbaycanı turnirdə 11 cüdoçu təmsil edib.***

Beynəlxalq turnirdə mübarizə aparan yeniyetmələrdən ibarət cüdo komandamız aktivinə üç medal yazdırıb. Oğlanların mübarizəsində İslam Rəhimov (55 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Yığmamızın digər üzvü 73 kq çəki dərəcəsində yarışan cüdoçumuz Məmmədrza Hacızadə yalnız final görüşündə uduzaraq gümüş medala sahib olub. Bürünc medalı isə 60 kq çəki dərəcəsində mübarizə aparan Zahir Ağazadə qazanıb.

Beləliklə, Azərbaycan cüdoçuları Xorvatiya turnirini bir dəst medalla başa vurublar.

# Allah rəhmət eləsin!

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rəhbərliyi və kollektivi Akademiyanın "Oyun idman növləri" kafedrasının baş müəllimi

**Kamal Ərəstun oğlu Şıxəliyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

# İDMAN

№ 13 (7108) 6 iyul 2021


## Bədii gimnastlarımız “Egyptian Pharaohs Cup” turnirində uğurla çıxış ediblər

***Misirdə bədii gimnastika üzrə ”Egyptian Pharaohs Cup” adlı beynəlxalq turnir keçirilib. Yarışda çıxış edən bədii gimnastlarımız ölkəmizi uğurla təmsil ediblər.***




Turnirdə Azərbaycan təmsilçiləri - Arzu Cəlilova böyüklər arasında, Alina Məmmədova gənclər yaş qrupunda, Məryəm Əliyeva, Gövhər İbrahimova və Aydan Rəhimova isə yeniyetmələr arasında çıxış ediblər.

A.Cəlilova topla nümayiş etdirdiyi proqramına görə bürünc medal qazanıb.

Yeniyetmələrin yarışlarında A qrupunda çıxış edən G.İbrahimova və M.Əliyeva 2 proqram üzrə qalib olublar. G.İbrahimova gürzlərlə, M.Əliyeva isə topla hərəkətlərdə həmyaşıdlarından fərqlənərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Qızlar çoxnövçülükdə və halqa ilə çıxışlarına görə də fəxri kürsüdə mövqe tutmağı bacarıblar. Hər iki proqram üzrə G.İbrahimova gümüş, M.Əliyeva isə bürünc medala layiq görülüblər.

Yeniyetmələrin yarışlarında B qrupunda çıxış edən A.Rəhimova isə yarışdığı hər 3 proqramda (çoxnövçülük, alətsiz və halqa) ilk pillədə qərarlaşıb.

A.Məmmədova gənclərin çoxnövçülük yarışında 45 gimnast arasında 16-cı olub.

## Maks Ferstappen Fransa, Ştiriya və Avstriya Qran-Prilərinin qalibi olub

***İyunun 20-də Formula 1 üzrə dünya çempionatında Fransa Qran-Prisi keçirilib.***




Mövsümün sayca 7-ci yarışı Pol Rikar avtodromunda təşkil olunub. 53 dövrəlik mübarizənin qalibi ”Red Bull”un pilotu Maks Ferstappen olub. İlk üçlüyü ”Mercedes”in pilotu Luis Hamilton və ”Red Bull”un üzvü Serxio Peres tamamlayıblar.

İyunun 27-də keçirilən Ştiriya Qran-Prisində də niderlandlı pilot uğurla çıxış edib. O, 8-ci mərhələdə finişə ikinci çatan ”Mercedes” pilotu Luis Hamiltonu qabaqlayaraq turnir cədvəlindəki liderdiyini daha da möhkəmlədib. Yarışda ilk üçlüyü Hamiltonun komanda yoldaşı Valtteri Bottas tamamlayıb.

İyulun 4-də Şpilberq qəsəbəsi yaxınlığında yerləşən ”Red Bull Ring” trasında keçirilən Formula 1 üzrə dünya çempionatının Avstriya Qran-Prisinin qalibi də Maks Ferstappen olub. Sonrakı yerləri Valtteri Bottas (”Mercedes”) və Lando Norris (“McLaren”) tutublar.

Pilotların siyahısına 182 xalla M.Ferstappen başçılıq edir. L.Hamilton 150 xalla ikinci, S.Peres isə 104 xalla üçüncü pillədə yer alıb.

Ardıcıl 3 yarışda qələbə qazanan ”Red Bull” komandası konstruktorlar kubokunda 286 xalla birincidir. Hesabında 242 xal olan ”Mercedes” ikinci, ”McLaren” isə 141 xalla üçüncü yerdə qərarlaşıb.

## Qısa-qısa

Peşəkar döyüşlərin qalibi, dünya kubokunun mükafatçısı, kikboksçumuz Şikar Bədəlov Türkiyənin Konya şəhərində kəmər döyüşündə İranlı İbrahim Xezaini birinci raundun ilk dəqiqəsində nokautla məğlub edib.

Azərbaycan Milli Paralimpiya Komitəsinin güllə atıcılığı üzrə milli komandasının üzvü Kamran Zeynalov Serbiyanın Novi Sad şəhərində keçirilən Qran-Pridə 10 metr məsafədən atəşaçma yarışlarında qızıl medal qazanıb.

Böyük Britaniyanın Uorvik şəhərində cüdo idman növü üzrə keçirilən Beynəlxalq Qran-Pridə 100 kq çəki dərəcəsində mübarizə aparan paracüdoçu Kənan Abdullaxanlı finalda rəqibinə qalib gələrək yarışın qızıl medalına sahib olub. 52 kq çəki dərəcəsində mübarizə aparan Bəsti Səfərova yarışın gümüş medalını qazanıb.

Azərbaycanın və ”Qəbələ” idman klubunun kikboksçusu Pərviz Abdullayev İstanbulda təşkil olunan ”Akın döyüş arenası” çərçivəsində döyüşdə braziliyalı Gilyerme Rodriqo Ferreyra ilə üz-üzə gəlib. Bu, peşəkar səviyyədə 56-cı döyüşünü keçirən P.Abdullayevin 50-ci qələbəsi olub.

Dağıstanın Kaspiysk şəhərində sərbəst güləş üzrə Əli Əliyevin xatirə turnirində Əbülfəz Nəsirov (61 kq) bürünc medala sahib çıxıb.

Azərbaycan pəhləvanı Şərif Şərifov İstanbulda sərbəst güləş üzrə Yaşar Doğu turnirinin qalibi olub. Dünya, olimpiya və Avropa çempionumuz finalda türkiyəli Mustafa Səssizi məğlub edib.

Ukraynanın Lutsk şəhərində MMA üzrə peşəkar döyüşçülər arasında beynəlxalq turnirdə idmançımız Fətəli Talıbov (93 kq) ukraynalı rəqibinə qalib gələrək birinci olub. Turnirdə 93 kiloqram çəki dərəcəsində iştirak edən digər idmançımız Elçin Hüseynovun isə Ermənistandan olan rəqibi Mkrtiç Sarkisyan zədələnməyini səbəb göstərərək qarşılaşmaya çıxmayıb.

İtaliyanın Rozeto-deli-Abrutstsi şəhərində 22 yaşadək boksçular arasında Avropa çempionatında ardıcıl olaraq Uça Jorjolianiyə (Gürcüstan), Maqomed Şamsayevə (Rusiya) və David Gevorqyana (Almaniya) qalib gələn Ruslan Rüstəmov (64 kq) yarımfinalda israilli Ahmad Ştiviyə məğlub olaraq bürünc medalla kifayətlənib.

## Azərbaycan idmançısı sumo üzrə dünya çempionatında qızıl medal qazanıb



***Azərbaycan idmançıları Rusiyanın Kazan şəhərində keçirilən sumo və kəmər güləşi üzrə dünya çempionatında iştirak ediblər.***

Gənclər və böyüklər arasında keçirilən yarışda iştirak edən Camal Feyziyev sumo üzrə mütləq çəki dərəcəsində və kəmər güləşində bütün rəqiblərini qabaqlayaraq qızıl medal qazanıb. Təmsilçimiz 115 kiloqram çəki dərəcəsində isə bürünc medala yiyələnib.

Sumo üzrə 21 yaşadək olan digər idmançılarımızdan Sadiq Əliyev və Vəliş Hacıyev bürünc medal qazanıblar. 23 yaşlı idmançılardan isə Kamal Ələsgərov üçüncü yerə çıxıb.

Kəmər güləşində isə Vəliş Hacıyev və Xəyyam Abdullayev bürünc medalla kifayətləniblər.

Yığma komandamız bu nəticə ilə yarışda ikinci pillədə qərarlaşıb.

## Şəhriyar Məmmədyarov dünya reytinqində altıncı yerə yüksəlib

***Beynəlxalq Şahmat Federasiyası (FIDE) 2021-ci il iyulun 1-nə olan reytinq siyahısını açıqlayıb.***

Şahmatçımız Şəhriyar Məmmədyarov 2782 xalla dünya reytinqində 6-cı yerə yüksəlib. Millimizin digər üzvü Teymur Rəcəbovun isə mövqeyi dəyişməyib (2763, 10-cu yer).

İlk yüzlükdəki digər şahmatçılarımızdan Qədir Hüseynov (2665) 2 pillə irəliləyərək 72-ci yeri tutub, Nicat Abbasov (2656) 11 pillə geriləyərək 84-cü sırada qərarlaşıb, 3 pillə irəliləyən Rauf Məmmədov (2654) 87-ci yerdədir.

Kişi şahmatçıların reytinq siyahısına norveçli dünya çempionu Maqnus Karlsen (2847) başçılıq edir.

Qadın şahmatçılarımızın reytinqində isə Azərbaycanın üç zəka ustası ilk 100-lükdə qərarlaşıb. Günay Məmmədzadə (2460) reytinqini 14 bənd artıraraq 25-ci yerə yüksəlib. Gülnar Məmmədova (2385) 77-ci, Xanım Balacayeva (2376) isə 91-ci yerdədirlər.

Qadın şahmatçılar arasında da birinci pillədə çinli Yifan Hou (2658) yer alıb.

## Anna Skidan Balkan çempionatında qızıl medal qazanıb

***Azərbaycan atletləri Serbiyada start götürən böyüklər arasında Balkan çempionatında iştirak ediblər.***

Yarışda Azərbaycan altı idmançı ilə təmsil olunub. Ölkəmizi çəkicatma növündə təmsil edən Anna Skidan yarışda bütün rəqiblərini qabaqlayaraq qızıl medal qazanıb.

## Motokross üzrə Bakı çempionatı keçirilib

***İyunun 20-də Ümid Avtomobil Klubunun meydançasında motokross üzrə Bakı çempionatı keçirilib. Abşeron rayonu Pirəkəşkül qəsəbəsində keçirilən yarışda idmançılar güclərini 3 sinif mühərrikli motosikletlərdə sınayıblar.***



Yarışın yekun nəticələrinə əsasən, 85 kubsantimetr həcmli motosikletlərdə Emin Tağıyev, Camal Babayev, Ruslan Turin ilk üçülükdə qərarlaşıblar. Mühərrikin həcmi 125 kubsantimetr olan yarışda Oleq Quliyev bütün rəqiblərini qabaqlayaraq birinci olub. Vladimir Pirosmanoşvili yarışı ikinci, İstək Hüseynov isə üçüncü pillədə başa vurublar. Həcmi 450 kubsantimetr olan yarışda isə Sabir Babayev birinci, Vaqif Əhmədov ikinci, Şakir Ağasiyev üçüncü pillədə qərarlaşıblar.


Qəzetin təsisçisi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyidir

Baş redaktor: Qabil MEHDİYEV

Ünvan: AZ-1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, III mərtəbə. Telefon: faks: 510-53-10,
Web: www.azsport.az;
E-mail: idman@mys.az; Lisenziya: B235
Bank rekvizitlərimiz: h/h-AZ69AIIB33080019443300230103,
VÖEN: 1300432691, "Kapitalbank"ın Yasamal filialı, kod-200037,
VÖEN: 9900003611, Müxbir hesab: AZ37NABZ01350100000000001944

“İdman”ın kompüter mərkəzində yığılıb-səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
Tiraj: 1000 Sifariş: 1204
Qəzet hər həftənin çərşənbə axşamı günü çıxır.
Redaksiyaya daxil olan yazılar şərh edilmir və geri qaytarılmır.